Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Kollegiyasının 30.07.2015-ci il tarixli 151705000000620 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Əlavə - 2

## *“Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu” elektron xidməti üzrə inzibati reqlament*

### 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** *Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu.*

**1.2. Elektron xidmətin məzmunu:** *Bu xidmət Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada gəlir və ya mənfəət vergisinin hesabatını vermək öhdəliyi olan vergi ödəyiciləri tərəfindən “Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə” ərizə tərtib edilərək vergi orqanına təqdim edilməsini əhatə edir.*

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:** *Azərbaycan Respublikası Vergi Məcəlləsinin 74.1-ci maddəsi, Azərbaycan Respublikası Prezidentinin “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 23 may 2011-ci il tarixli, 429 nömrəli Fərmanının 2-ci və 2-1-ci hissələri, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş, 1 nömrəli əlavə - “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”, həmin Qaydalara 1 nömrəli əlavə, eləcə də "Elektron xidmət növlərinin Siyahısı”nın 7.62-ci bəndi.*

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** *Azərbaycan Respublikasının Vergilər Nazirliyi.*

**1.5. Elektron xidmətin digər icraçıları:** *Yoxdur.*

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** *Tam avtomatlaşdırılmışdır.*

**1.7. Elektron xidmətin icra müddəti:** *“İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununun 52-ci maddəsində göstərilən müddətlər.*

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Vergi ödəyicisi tərəfindən təqdim edilmiş ərizə cavablandırılaraq, bu barədə onun elektron ünvanına məlumat göndərilir.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** *İnteraktiv.*

**2.2. Elektron xidmət üzrə ödəniş:** *Ödənişsiz.*

**2.3. Elektron xidmətin istifadəçiləri:** *Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada gəlir və ya mənfəət vergisinin hesabatını vermək öhdəliyi olan vergi ödəyiciləri.*

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** *http://www.e-taxes.gov.az/ http://www.e-gov.az.*

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

**2.5.1.** *http://www.taxes.gov.az;*

**2.5.2.** *https://www.e-taxes.gov.az;*

**2.5.3.** *http://www.e-gov.az;*

**2.5.4.** *vergi ödəyicilərinə xidmət strukturları (müvafiq idarə və şöbələr) ;*

**2.5.5.** *vergi ödəyicilərinə xidmət mərkəzləri;*

**2.5.6.** *Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195);*

**2.5.7**. *office@taxes.gov.az.*

**2.6 Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** *Elektron xidmətin göstərilməsi üçün sənəd tələb olunmur.*

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu:** *İnteraktiv xidmətlərin istifadəçilərinin Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən verilmiş şifrə, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda istifadəçiyə təklif olunan ərizə formasını tərtib etmək və təsdiq etmək imkanı yaranır. Ərizə iş vaxtı başa çatdıqdan sonra və ya qeyri-iş günündə sistemə daxil edilmişdirsə, bu halda onun icrası həmin gündən sonrakı ilk iş gününün əvvəlində həyata keçirilir. Sorğunun formalaşdırılması və qəbulu aşağıdakı mərhələlərdən ibarətdir:*

**3.1.1. Sorğunun formalaşdırılması:** *“Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə” ərizənin vergi orqanına təqdim edilməsi İnternet Vergi İdarəsi portalının “Onlayn kargüzarlıq və e-VHF”bölümü üzərindən aparılır. Bu məqsədlə “Yeni*

*müraciət” düyməsi sıxılır və açılan pəncərədə “Kimə ” siyahısından - Azərbaycan Respublikasının Vergilər Nazirliyi, “Müraciətin növü” siyahısından - Ərizə, “Sənədin növü” siyahısından - “Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə” ərizə seçilir. Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması tarixləri vergi ödəyicisi tərəfindən interaktiv şəkildə ərizəyə daxil edilir və daha sonra istifadəçi kodu, parol, şifrə vasitəsilə sistemə daxil olmuş vergi ödəyiciləri “Qəbul” düyməsini, gücləndirilmiş elektron imza vasitəsi ilə sistemə daxil olmuş vergi ödəyiciləri isə “İmzala və göndər” düyməsini sıxırlar. “Qəbul” düyməsi və ya “İmzala və göndər” düyməsi sıxıldıqdan sonra ərizənin məzmunu sistem tərəfindən avtomatik olaraq formalaşdırılaraq aidiyyəti üzrə baxılması üçün vergi orqanına göndərilir;*

**3.1.2. Sorğunun qəbulu:** *“Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə” ərizə sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və ona 16 rəqəmli qeydiyyat nömrəsi əks olunmuş Bildiriş göndərilir.*

**3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.2.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:** *Vergi ödəyicisi tərəfindən təqdim olunan “Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə” ərizə gəlir və ya mənfəət vergisi hesabatının təqdim edilməsi üçün Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş müddətdən sonra təqdim olunduğu halda imtina edilir və sistem tərəfindən bu barədə istifadəçinin ekranına müvafiq mesajlar verilir;*

**3.2.2. Sorğunun qəbulu:** *İmtina üçün əsas olmadıqda ərizə qəbul edilir.*

**3.3. Sorğunun icrası:**

**3.3.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

**1.** *“Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə” ərizə İnternet Vergi İdarəsi portalının “Onlayn kargüzarlıq və e-VHF” bölümünə daxil olmaqla elektron formada tərtib edilərək təqdim edilir;*

**2.** *istifadəçi adı, şifrə və parola görə vergi ödəyicisinin sistemdə təyin edilməsi (identikləşdirilməsi), məsul şəxs - Azərbaycan Respublikasının Vergilər Nazirliyi;*

**3.** *gücləndirilmiş elektron imza sahibinin sistemdə təyin edilməsi (identikləşdirilməsi), məsul şəxs - akkreditə edilmiş sertifikat mərkəzi;*

**4.** *ərizənin icraya qəbul edilməsi barədə vergi ödəyicisinə bildirişin göndərilməsi, məsul şəxs - Azərbaycan Respublikasının Vergilər Nazirliyi;*

**5.** *elektron xidmətin göstərilməsinə məsul şəxs - Azərbaycan Respublikasının Vergilər*

*Nazirliyi;*

**3.3.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:** *Elektron xidmət "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 52-ci maddəsində göstərilən müddətlərdə yerinə yetirilir;*

**3.3.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** *Yoxdur;*

**3.3.4. Hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:** *Vergi ödəyicisi tərəfindən təqdim edilmiş ərizə cavablandırılaraq, bu barədə onun elektron ünvanına məlumat göndərilir;*

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.4.1. Nəzarət forması:** *Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir;*

**3.4.2. Nəzarət qaydası:** *Bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195) fəaliyyət göstərir.*

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** *İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət edə bilər. Şikayətin verilməsi və baxılması qaydası aşağıdakı kimidir:*

**3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** *Elektron xidmətin göstərilməsindən və ya elektron xidmətin göstərilməsindən imtinadan qanunvericiliyə uyğun olaraq inzibati qaydada və məhkəməyə şikayət verilə bilər;*

**3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** *İnzibati şikayətin forması "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 74-cü maddəsinə uyğun olmalıdır;*

**3.5.3. Şikayətin baxılma müddəti:** *Şikayət inzibati orqana verildikdə, şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunun 78-ci maddəsinə əsasən 1 ay muddətinə baxılır. Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.*

* * *